İlin yubileyləri: Qaçaq Nəbi – 170

# Dastanlaşmış qəhrəmanlıq

**Dünya tarixində ən böyük hünər və qəhrəmanlıqlar vətən naminə edilib. Vətən, torpaq, azadlıq uğrunda mübarizə aparanlar seçilmiş insanlardır. Onlardan biri də xalqın içindən çıxmış qəhrəman – Qaçaq Nəbi olub.**

Anadan olmasının 170 ili qeyd edilən Qaçaq Nəbi zamana qarşı sanki at oynadanlardan idi. O, həqiqi elcanlı adam kimi, ailəsini özündən, vətənini isə ailəsindən uca tutub. Ürəyində tüğyan edən millət sevgisi həyatının mənasına çevrilib. Təsadüfi deyil ki, kinolara mövzu, şeirlərə misra, musiqilərə not olub onun örnəyi.

Qaçaq Nəbi 1854-cü ildə Şərqi Zəngəzurda, indiki Qubadlı rayonunun Aşağı Mollu kəndində anadan olub. İgidliyi ilə eldə, mahalda çox tanınıb. Nəbinin atası Alı kişi ailəsinin dolanacaq çətinliklərini nəzərə alaraq onu kənddəki bir varlıya muzdur verir. Yerli mülkədar kəndlilərin torpaqlarını tutmaq istəyəndə muzdur Nəbi buna dözməyib, haqsızlığa qarşı müqavimət göstərir. Bundan sonra qaçaq düşür. Özü kimi narazı kəndlilərdən dəstə düzəldir. Onun dəstəsi Naxçıvan və Zəngəzur qəzalarında qaçaqlıq edir, el-obanı zülmkarlardan qoruyurdu. Mülkədarların var-dövlətini alaraq kəndlilərə paylayırdı. Çar hökuməti 20 il Qaçaq Nəbini və dəstəsini məhv etməyə çalışmış, lakin məqsədinə nail ola bilməmişdi. Sonda – 1896-cı il martın 12-də satılmış iki xain qəflətən Nəbiyə hücum edərək onu öldürüblər. Azərbaycanın xalq qəhrəmanı Qaçaq Nəbi cəmi 42 il ömür sürüb.

Nəbi azadlıq aşiqi, haqq-ədalət tərəfdarı idi. Düzdür, o, Azərbaycanın azadlığa qovuşmasını görə bilməsə də, bir vətəndaş olaraq milli düşüncə formalaşdıra bilməsi ilə tarixə düşüb. O, Azərbaycanı müstəmləkə altında görmək istəmirdi. 22 yaşlı bir gəncin ruhunda yanan azadlıq eşqi onu dağlara, mahallara salmışdı. Özü kimi





say-seçmə oğullarla bərabər məqsədinə çatmağa çalışırdı.

İgidin atı da sanki onun bir döyüşçüsü idi. El arasında indi də avazla oxunan bu mahnını kim bilmir ki...

**Bozat, məni bu davadan qurtarsan,**
**Qızıldan, gümüşdən səni nallaram.**
**Qoy mənə desinlər, ay Qaçaq Nəbi,**
**Həcəri özündən ay qoçaq Nəbi!**

Bəli, “divanı yerindən oynadan” Nəbinin ailəsi, xanımı Həcər də azadlıq amal uğrunda onunla bərabər çiyin-çiyinə şücaət, qəhrəmanlıq göstərirdi. “Aslanın erkəyi dişisi olmaz” – bu el məsəli Həcər xanımın taleyinə yazılmış bir seçim idi. O, Nəbinin dostu, silahdaşı idi. Həcər xanım qazamatda olan zaman dediyi şeir nəğməyə, dastana dönüb, dillər əzbərinə çevrilib:

**Mən gələndə şamamalar gül idi,**
**Dörd yanımı atlı düşmən bürüdü,**
**Yazıq canım qazamatda çürüdü,**
**Mənim bu günümdə gələsən, Nəbi,**
**Zalımlar əlindən alasan, Nəbi!**

Qaçaq Nəbinin haqqında yaranan el dastanı, Süleyman Rüstəmin “Qaçaq Nəbi” pyesi, Cəlal Bərgüşadın “Bozatın belində” romanı, çoxsaylı şeirlər əldən-ələ, dildən-dilə gəzir. Onun hqqında məlumatlar Tifls, Bakı və Naxçıvan dövlət arxivlərindən, “Kavkaz” qazetinin səhifələrindən əldə edilib və tarixi həqiqətlər faktiki sübut-dəlillərlə öyrənilib. Əbdül Mahmudovla Həsənağa Turabovun quruluşunda çəkilmiş “Atları yəhərləyin” və ya “Qanlı zəmi” filminin əsas motivlərini ssenarist Əhmədağa Muğanlı Süleyman Rüstəmin pyesindən götürüb. Burada xalq qisasçısı, əfsanəvi qəhrəman Qaçaq Nəbinin, onun dəstəsinin göstərdiyi igidliklərdən məhəbbətlə söhbət açılır. Əhliman Axundov, Bəhlul Behcət kimi yazıçı və şairlər əsərlərində Qaçaq Nəbini sevə-sevə tərənnüm ediblər.

Bəli, Nəbi bizim qəhrəmandır. O, azadlıq hərəkatının mübarizlərindəndir. Kasıbın dostu, haqqın gücü idi Nəbi. Onun azadlıq alovunu söndürmək mümkün deyildi. Çar canişinləri bunu gözəl anlayırdı. Və əlbəttə, ancaq xainliklə Nəbiyə qalib gəlmək olardı ki, elə də oldu. Namərd xəyanəti – “arxadan vurulan zərbə” Nəbinin vətən eşqiylə döyünən ürəyinə bıçaq kimi saplandı... Amma bu, Azərbaycan xalqının azadlıq eşqini söndürə, iradəsini sındıra bilmədi. Zaman Nəbinin “Aynalı” tüfənginin gücü ilə olmasa da, azadlığı bizə bəxş etdi. Cismən deyil, ruhən Nəbinin ürəyini, beynini özündə yaşadan oğullar sayəsində.

Qaçaq Nəbinin qəhrəmanlığı Azərbaycanın şöhrət tarixinə bir mirasdır. Bu mirasdan bəhrələnən yurdumun qəhrəman oğulları müstəqillik qazanıblar, 30 il işğalda qalan Qarabağı, Şərqi Zəngəzuru qanları, canları bahasına azad ediblər.

Ruhun şad olsun, xalq qəhrəmanım!

*Könül Absəttar qızı*